# İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin
# 2020-ci il üzrə fəaliyyətinə dair

# HESABAT

**Mündəricat**

1. Giriş ... 3
2. Normativ hüquqi aktlar ... 3
3. Tibbi statistik göstəricilər ... 5
4. Maliyyə ayırmaları ... 13
5. İctimaiyyətlə əlaqələr ... 13
6. Vətəndaş müraciətlərinə baxılması ... 17
7. Beynəlxalq əməkdaşlıq ... 18
   7.1. Layihələr ... 18
   7.2. Beynəlxalq təcrübənin öyrənilməsi ... 19
8. Koronavirus pandemiyası ilə mübarizə ... 19
   8.1. Tibbi statistik göstəricilər ... 19
   8.2. Texniki dəstək ... 19
   8.3. İnformasiya texnologiyaları üzrə tədbirlər ... 20
   8.4. Maarifləndirmə üzrə tədbirlər ... 20
   8.5. Beynəlxalq əməkdaşlıq ... 20
9. İnkişaf perspektivləri ... 21
   9.1. İnformasiya texnologiyaları və qeydiyyat sistemi üzrə hazırlıq işləri ... 21
   9.2. İnsan resursları üzrə hazırlıq işləri ... 22

## 1. Giriş

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 765 nömrəli Fərmanına əsasən fəaliyyətə başlamış, 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanı ilə onun əsasında "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs (bundan sonra – Agentlik) yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 noyabr tarixli 1127 nömrəli və 2018-ci il 16 fevral tarixli 1830 nömrəli Fərmanlarına əsasən 2017-ci ildən 2019-cu ilədək Agentlik tərəfindən icbari tibbi sığorta (bundan sonra – İTS) pilot layihə şəklində Mingəçevir şəhərində, Yevlax və Ağdaş rayonlarında həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 31 mart tarixli 979 nömrəli Fərmanına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 aprel tarixli 136 nömrəli Qərarına əsasən 2020-ci ilin yanvar ayından Agentlik tərəfindən İTS Mingəçevir şəhərində, Qusar, Xaçmaz, Quba, Şabran, Siyəzən, Xızı, Qobustan, İsmayıllı, Ağsu, Şamaxı, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, Göyçay, Ucar, Zərdab, Kürdəmir, Yevlax və Ağdaş rayonlarında tətbiq edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanına əsasən Agentlik tərəfindən "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxs (bundan sonra – TƏBİB) yaradılmışdır və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyindəki dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələri (müəyyən istisnalarla) 2020-ci ilin yanvar ayından TƏBİB-in tabeliyinə verilmişdir.

## 2. Normativ hüquqi aktlar

2020-ci ildə Agentliyin fəaliyyətinə dair aşağıdakı normativ hüquqi aktlar qəbul edilmişdir:

- "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 yanvar 2020-ci il tarixli 5 nömrəli Qərarı;
- "İcbari tibbi sığorta üzrə dövlət büdcəsinin vəsaiti hesabına sığorta haqqının 2020-ci ildə mərhələli şəkildə ödənilməsi Qaydası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 mart 2020-ci il tarixli 98 nömrəli Qərarı;
- "Sığortaolunanların ilkin səhiyyə xidməti üzrə dövlət tibb müəssisəsinə təhkimolunma Qaydası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 mart 2020-ci il tarixli 92 nömrəli Qərarı;
- "Tibbi-iqtisadi ekspertizanın aparılması Qaydası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 mart 2020-ci il tarixli 93 nömrəli Qərarı;
- "Tibbi xidmətin keyfiyyətinin ekspertizasının aparılması Qaydası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 mart 2020-ci il tarixli 94 nömrəli Qərarı;
- "İcbari tibbi sığorta şəhadətnaməsi"nin Nümunəvi forması"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 mart 2020-ci il tarixli 101 nömrəli Qərarı;
- "Tibbi xidmətlərin göstərilməsi haqqında Müqavilə"nin Nümunəvi forması"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 mart 2020-ci il tarixli 102 nömrəli Qərarı;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 dekabr tarixli 504 nömrəli Qərarı ilə təsdiq edilmiş “İcbari tibbi sığortanın ölkənin inzibati ərazi vahidləri üzrə tətbiqi ardıcıllığı”nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 mart 2020-ci il tarixli 111 nömrəli Qərarı;
- “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə 30 mart 2020-ci il tarixli Azərbaycan Respublikasının Qanunu;
- “İcbari tibbi sığortanın ölkənin inzibati ərazi vahidləri üzrə tətbiqi ardıcıllığı”nın təsdiq edilməsi və “İcbari tibbi sığortanın ölkənin inzibati ərazi vahidləri üzrə tətbiqi ardıcıllığı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 dekabr tarixli 504 nömrəli Qərarının ləğv edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 aprel tarixli 136 nömrəli Qərarı;
- “Yol hərəkəti haqqında”, “Sosial sığorta haqqında”, “Tibbi sığorta haqqında”, “İşsizlikdən sığorta haqqında”, “Məşğulluq haqqında”, “Dövlət rüsumu haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Ətraf mühitin mühafizəsi haqqında”, “Baytarlıq haqqında”, “Fitosanitar nəzarəti haqqında” və “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə 1 may 2020-ci il tarixli Azərbaycan Respublikasının Qanunu;
- Azərbaycan Respublikası Prezidentinin “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1997-ci il 25 iyul tarixli 622 nömrəli Fərmanında, 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə”də və 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2 iyun 2020-ci il tarixli 1048 nömrəli Fərmanı;
- “İcbari tibbi sığorta üzrə sığorta ehtiyatlarının yaradılması və onlardan istifadə Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 avqust 2020-ci il tarixli 297 nömrəli Qərarı;
- “İcbari tibbi sığorta üzrə dövlət büdcəsinin vəsaiti hesabına sığorta haqqının 2020-ci ildə mərhələli şəkildə ödənilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 98 nömrəli Qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 sentyabr 2020-ci il tarixli 326 nömrəli Qərarı;
- “İcbari tibbi sığorta üzrə sığorta haqqının hesablanmasına və ödənilməsinə nəzarət Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 oktyabr 2020-ci il tarixli 376 nömrəli Qərarı;
- “Sığortaolunanların fərdi uçotunun aparılması Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 oktyabr 2020-ci il tarixli 401 nömrəli Qərarı;
- “Tibb müəssisələrinin akkreditasiyası Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 noyabr 2020-ci il tarixli 447 nömrəli Qərarı;

- “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə 20 noyabr 2020-ci il tarixli Azərbaycan Respublikasının Qanunu;
- “Tibbi xidmətlərin xidmətlər zərfinə daxil edilməsi və ya tibbi xidmətlərin xidmətlər zərfindən çıxarılması meyarları və qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 dekabr dekabr 2020-ci il tarixli 478 nömrəli Qərarı;
- “Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 dekabr 2020-ci il tarixli 494 nömrəli Qərarı;
- “İcbari tibbi sığorta vəsaitlərinin uçotunun aparılması və hesabatının təqdim edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 dekabr 2020-ci il tarixli 495 nömrəli Qərarı;
- Azərbaycan Respublikası Prezidentinin “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli və “Azərbaycan Respublikasının Gənclər Fondunun vəsaitindən istifadə, o cümlədən Fondun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2018-ci il 29 avqust tarixli 253 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2020-ci il tarixli 1221 nömrəli Fərmanı.

## 3. Tibbi statistik göstəricilər

2020-ci ildə İTS-nin tətbiq edildiyi inzibati ərazilərdəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələri üzrə stasionardan evə yazılan xəstələrin sayı 85658, cərrahi əməliyyatların sayı isə 35287 olmuşdur.

Şəki-Zaqatala tibbi ərazi bölməsi (bundan sonra – TƏB) üzrə cərrahi əməliyyatların və ambulator-poliklinik gəlişlərin sayı digər aidiyyəti TƏB-lər üzrə ümumi göstəricilərin müvafiq olaraq 40%-ni və 32%-ni təşkil etmişdir. Ən çox cərrahi əməliyyatlar və evə yazılan xəstələr Mingəçevir şəhərində, Şəki, Quba, Zaqatala və Göyçay rayonlarında olmuşdur.

Tibbi statistik göstəricilərə dair ətraflı məlumat aşağıdakı cədvəllərdə əks olunmuşdur:

İTS-nin tətbiq edildiyi inzibati ərazilərdəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələri üzrə tibbi statistik məlumatlar, 2020-ci il

| № | Göstəricilər | Cəmi |
|---|---|---|
| 1 | Əhalinin sayı (01.01.2020) | 2 256 000 |
| 2 | Həkimlərin sayı | 2 673 |
| 3 | Orta tibb işçilərinin sayı | 8 582 |
| 4 | Həkimə gəlişlərin sayı, profilaktiki gəlişlər daxil olmaqla | 4 170 432 |
| 5 | Stasionar qəbul | 89 315 |
| | Evə yazılan xəstələrin sayı | 85 658 |
| | Evə yazılan xəstələr tərəfindən keçirilən çarpayı günlərinin sayı | 412 075 |

| | | |
|---|---|---|
| | Evə yazılan xəstələrin çarpayıda keçirdiyi günlərin orta sayı | 4,8 |
| 6 | Cərrahi əməliyyatların sayı | 35 287 |
| 7 | Çarpayıların sayı | 4 425 |
| 8 | Çarpayıdan istifadə olunma əmsalı | 26% |

** İsmayıllı, Qobustan, Şəki və Qəbələ modul tipli xəstəxanaların tibbi statistik məlumatları da hesablamalara daxildir.*
*** Aidiyyəti tibb müəssisələrinin Hemodializ şöbəsinin tibbi statistik məlumatları hesablamalara daxil deyil.*

## İTS-nin tətbiq edildiyi inzibati ərazilərdəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələri üzrə hemodializə dair statistik məlumatlar, 2020-ci il

| № | Göstəricilər | Cəmi |
|---|---|---|
| 1 | Dializ aparatlarının sayı | 125 |
| 2 | Keçirilmiş hemodializlərin sayı | 89 937 |

## Quba-Xaçmaz TƏB-dəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələri üzrə tibbi statistik məlumatlar, 2020-ci il

| № | Göstəricilər | Cəmi |
|---|---|---|
| 1 | Əhalinin sayı (01.01.2020) | 554 700 |
| 2 | Həkimlərin sayı | 549 |
| 3 | Orta tibb işçilərinin sayı | 1 599 |
| 4 | Həkimə gəlişlərin sayı, profilaktiki gəlişlər daxil olmaqla | 729 871 |
| 5 | Stasionar qəbul | 22 446 |
| | Evə yazılan xəstələrin sayı | 22 016 |
| | Evə yazılan xəstələr tərəfindən keçirilən çarpayı günlərinin sayı | 115 565 |
| | Evə yazılan xəstələrin çarpayıda keçirdiyi günlərin orta sayı | 5,2 |
| 6 | Cərrahi əməliyyatların sayı | 5 665 |
| 7 | Çarpayıların sayı | 888 |
| 8 | Çarpayıdan istifadə olunma əmsalı | 36% |

** Quba, Qusar, Xaçmaz və Siyəzən rayon Mərkəzi Xəstəxanalarının Hemodializ şöbəsinin tibbi statistik məlumatları hesablamalara daxil deyil.*

## Dağlıq-Şirvan TƏB-dəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələri üzrə tibbi statistik məlumatlar, 2020-ci il

| № | Göstəricilər | Cəmi |
|---|---|---|
| 1 | Əhalinin sayı (01.01.2020) | 322 200 |
| 2 | Həkimlərin sayı | 301 |
| 3 | Orta tibb işçilərinin sayı | 908 |
| 4 | Həkimə gəlişlərin sayı, profilaktiki gəlişlər daxil olmaqla | 403 148 |
| 5 | Stasionar qəbul | 9 143 |

| | | |
|---|---|---|
| | Evə yazılan xəstələrin sayı | 8 626 |
| | Evə yazılan xəstələr tərəfindən keçirilən çarpayı günlərinin sayı | 47 717 |
| | Evə yazılan xəstələrin çarpayıda keçirdiyi günlərin orta sayı | 5,5 |
| 6 | Cərrahi əməliyyatların sayı | 3 133 |
| 7 | Çarpayıların sayı | 817 |
| 8 | Çarpayıdan istifadə olunma əmsalı | 25% |

** İsmayıllı və Qobustan modul tipli xəstəxanaların tibbi statistik məlumatları da hesablamalara daxildir.*
*** Şamaxı, İsmayıllı və Ağsu rayon Mərkəzi Xəstəxanalarının Hemodializ şöbəsinin tibbi statistik məlumatları hesablamalara daxil deyil.*

## Göyçay-Kürdəmir TƏB-dəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələri üzrə tibbi statistik məlumatlar, 2020-ci il

| № | Göstəricilər | Cəmi |
|---|---|---|
| 1 | Əhalinin sayı (01.01.2020) | 388 400 |
| 2 | Həkimlərin sayı | 371 |
| 3 | Orta tibb işçilərinin sayı | 1 321 |
| 4 | Həkimə gəlişlərin sayı, profilaktiki gəlişlər daxil olmaqla | 623 978 |
| 5 | Stasionar qəbul | 12 667 |
| | Evə yazılan xəstələrin sayı | 10 987 |
| | Evə yazılan xəstələr tərəfindən keçirilən çarpayı günlərinin sayı | 52 032 |
| | Evə yazılan xəstələrin çarpayıda keçirdiyi günlərin orta sayı | 4,7 |
| 6 | Cərrahi əməliyyatların sayı | 4 422 |
| 7 | Çarpayıların sayı | 487 |
| 8 | Çarpayıdan istifadə olunma əmsalı | 32% |

** Kürdəmir və Zərdab rayon Mərkəzi Xəstəxanalarının Hemodializ şöbəsinin tibbi statistik məlumatları hesablamalara daxil deyil.*

## Şəki-Zaqatala TƏB-dəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələri üzrə tibbi statistik məlumatlar, 2020-ci il

| № | Göstəricilər | Cəmi |
|---|---|---|
| 1 | Əhalinin sayı (01.01.2020) | 626 700 |
| 2 | Həkimlərin sayı | 893 |
| 3 | Orta tibb işçilərinin sayı | 3 154 |
| 4 | Həkimə gəlişlərin sayı, profilaktiki gəlişlər daxil olmaqla | 1 345 727 |
| 5 | Stasionar qəbul | 25 662 |
| | Evə yazılan xəstələrin sayı | 25 049 |
| | Evə yazılan xəstələr tərəfindən keçirilən çarpayı günlərinin sayı | 101 741 |
| | Evə yazılan xəstələrin çarpayıda keçirdiyi günlərin orta sayı | 4,1 |
| 6 | Cərrahi əməliyyatların sayı | 14 179 |
| 7 | Çarpayıların sayı | 1 479 |

| | | |
|---|---|---|
| 8 | Çarpayıdan istifadə olunma əmsalı | 23% |

** Şəki və Qəbələ modul tipli xəstəxanaların tibbi statistik məlumatları da hesablamalara daxildir.*
*** Zaqatala, Şəki və Qəbələ rayon Mərkəzi Xəstəxanalarının Hemodializ şöbəsinin tibbi statistik məlumatları hesablamalara daxil deyil.*

## Sumqayıt TƏB-dəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələri üzrə tibbi statistik məlumatlar, 2020-ci il

| № | Göstəricilər | Cəmi |
|---|---|---|
| 1 | Əhalinin sayı (01.01.2020) | 17 100 |
| 2 | Həkimlərin sayı | 23 |
| 3 | Orta tibb işçilərinin sayı | 50 |
| 4 | Həkimə gəlişlərin sayı, profilaktiki gəlişlər daxil olmaqla | 13 336 |
| 5 | Stasionar qəbul | 161 |
| | Evə yazılan xəstələrin sayı | 161 |
| | Evə yazılan xəstələr tərəfindən keçirilən çarpayı günlərinin sayı | 1 273 |
| | Evə yazılan xəstələrin çarpayıda keçirdiyi günlərin orta sayı | 7,9 |
| 6 | Cərrahi əməliyyatların sayı | 2 |
| 7 | Çarpayıların sayı | 37 |
| 8 | Çarpayıdan istifadə olunma əmsalı | 9% |

** Yalnız Xızı rayon Mərkəzi Xəstəxanasının tibbi statistik məlumatları hesablamalara daxildir.*
*** Xızı rayon Mərkəzi Xəstəxanasının Hemodializ şöbəsinin tibbi statistik məlumatları hesablamalara daxil deyil.*

## Bərdə-Yevlax TƏB-dəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələri üzrə tibbi statistik məlumatlar, 2020-ci il

| № | Göstəricilər | Cəmi |
|---|---|---|
| 1 | Əhalinin sayı (01.01.2020) | 346 900 |
| 2 | Həkimlərin sayı | 536 |
| 3 | Orta tibb işçilərinin sayı | 1 550 |
| 4 | Həkimə gəlişlərin sayı, profilaktiki gəlişlər daxil olmaqla | 1 054 372 |
| 5 | Stasionar qəbul | 19 236 |
| | Evə yazılan xəstələrin sayı | 18 819 |
| | Evə yazılan xəstələr tərəfindən keçirilən çarpayı günlərinin sayı | 93 747 |
| | Evə yazılan xəstələrin çarpayıda keçirdiyi günlərin orta sayı | 5,0 |
| 6 | Cərrahi əməliyyatların sayı | 7 886 |
| 7 | Çarpayıların sayı | 717 |
| | Çarpayıdan istifadə olunma əmsalı | 38% |

** Yalnız Mingəçevir şəhər, Yevlax və Ağdaş rayon Mərkəzi Xəstəxanalarının tibbi statistik məlumatları hesablamalara daxildir.*

*** Mingəçevir şəhər Mərkəzi Xəstəxanasının Psixonevroloji və Narkoloji dispanser, Uşaq Nevroloji Sanatoriyası və Hemodializ şöbəsinin, habelə Yevlax və Ağdaş rayon Mərkəzi Xəstəxanalarının Hemodializ şöbəsinin tibbi statistik məlumatları hesablamalara daxil deyil.*

## İTS-nin tətbiq edildiyi inzibati ərazilərdəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrinə müraciət edənlərin əsas xəstəlik sinifləri üzrə bölgüsü, 2020-ci il

Əsas xəstəlik sinifləri üzrə statistik göstəricilərin təhlili göstərir ki, 2020-ci ildə İTS-nin tətbiq edildiyi inzibati ərazilərdəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrində xəstəliklər arasında əsas yeri əhalinin sağlamlıq vəziyyətinə təsir edən amillər ilə bağlı müraciətlər tutmuşdur. Bununla yanaşı, 23 inzibati ərazi üzrə əhalinin əsas xəstəliklərini qan dövranı, tənəffüs, endokrin və sidik-cinsiyyət sistemi xəstəlikləri təşkil etmişdir. Buna dair məlumat aşağıdakı cədvəl və qrafikdə əks olunmuşdur:

| Xəstəlik sinifləri | Cəmi |
|---|---|
| Əhalinin sağlamlıq vəziyyətinə təsir edən amillər və səhiyyə müəssisəsinə müraciət | 729.236 |
| Qan dövranı sistemi xəstəlikləri | 297.635 |
| Tənəffüs sistemi xəstəlikləri | 249.390 |
| Endokrin sistemin xəstəlikləri, maddələr mübadiləsi və qidalanma pozuntuları | 238.042 |
| Sidik-cinsiyyət sisteminin xəstəlikləri | 204.010 |
| Həzm sisteminin xəstəlikləri | 192.504 |
| Digər xəstəliklər | 1.198.210 |




## İTS-nin tətbiq edildiyi inzibati ərazilərdəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrində keçirilən cərrahi əməliyyatlar, 2020-ci il

İTS-nin tətbiqindən sonra tibb müəssisələrinin cərrahiyyə fəaliyyətində artım müşahidə olunmuşdur. Belə ki, 2019-cu il ilə müqayisədə 2020-ci ildə stasionarda olan cərrahi əməliyyatlar 7% artmışdır. 2020-ci ildə İTS-nin tətbiq edildiyi inzibati ərazilərdəki TƏBİB-in

tabeliyinə verilmiş tibb müəssisələrində əsas cərrahi əməliyyatları qadın cinsiyyət üzvləri üzərində aparılan əməliyyatlar, həzm sistemində aparılan əməliyyatlar, mamalıq prosedurları təşkil etmişdir. Buna dair məlumat aşağıdakı cədvəl və qrafikdə əks olunmuşdur:

| Əməliyyatlar | Cəmi |
|---|---|
| Qadın cinsiyyət üzvləri üzərində aparılan əməliyyatlar | 10.096 |
| Həzm sistemində aparılan əməliyyatlar | 9.582 |
| Mamalıq prosedurları | 8.103 |
| Kişi cinsiyyət üzvlərində aparılan əməliyyatlar | 2.663 |
| Burun, ağız və udlaqda aparılan əməliyyatlar | 2.009 |
| Digər əməliyyatlar | 2.834 |






<u>İTS-nin tətbiq edildiyi inzibati ərazilərdəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrində təcili və təxirəsalınmaz tibbi yardım gedişlərinin sayı, 2020-ci il</u>

İTS-nin tətbiqi nəticəsində vətəndaşların tibbi xidmətlərə əlçatanlığının artması təcili və təxirəsalınmaz tibbi yardım çağırışlarının ümumi sayında da öz əksini tapmışdır. Belə ki, 2020-ci ildə İTS-nin tətbiq edildiyi inzibati ərazilərdəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrində 225682 təcili və təxirəsalınmaz tibbi yardım çağırışı olmuşdur. Bərdə-Yevlax TƏB üzrə çağırışların sayı digər aidiyyəti TƏB-lər üzrə ümumi göstəricilərin 33%-ni təşkil etmişdir. Buna dair məlumat aşağıdakı cədvəl və qrafikdə əks olunmuşdur:

| Tibbi ərazi bölməsi | Cəmi |
|---|---|
| Bərdə-Yevlax | 73.887 |
| Şəki-Zaqatala | 52.890 |
| Quba-Xaçmaz | 38.652 |
| Göyçay-Kürdəmir | 29.585 |
| Dağlıq Şirvan | 29.085 |
| Sumqayıt | 1.583 |




** Bərdə-Yevlax TƏB üzrə yalnız Mingəçevir şəhər, Yevlax və Ağdaş rayon Mərkəzi Xəstəxanalarının təcili və təxirəsalınmaz tibbi yardım çağırışları əks olunmuşdur.*
*** Sumqayıt TƏB üzrə yalnız Xızı rayon Mərkəzi Xəstəxanasının təcili və təxirəsalınmaz tibbi yardım çağırışları əks olunmuşdur.*

Mingəçevir şəhər, Yevlax, Ağdaş, Xaçmaz və Şəki rayon Mərkəzi Xəstəxanalarının təcili və təxirəsalınmaz tibbi yardım üzrə çağırışlarının sayı aidiyyəti TƏB-lər üzrə ümumi göstəricilərin müvafiq olaraq 18%-ni, 9%-ni, 7%-ni, 6%-ni, 6%-ni təşkil etmişdir. Buna dair məlumat aşağıdakı qrafikdə əks olunmuşdur:




<u>Özəl və təsərrüfat hesablı dövlət tibb müəssisələri tərəfindən göstərilmiş ixtisaslaşdırılmış tibbi xidmətlər, 2020-ci il</u>

TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrində ixtisaslaşdırılmış tibbi xidmətlərin göstərilməsi mümkün olmadıqda özəl və təsərrüfat hesablı dövlət tibb müəssisələrinə göndəriş əsasında sığortaolunanlara 3807 müraciət üzrə ümumilikdə 9337 sayda tibbi xidmət göstərilmişdir. Müraciətlərə əsasən göstərilmiş xidmətlərin bölgüsü 37,40% invaziv radioloji xidmətləri, 34,36% ürək-damar cərrahiyyəsi, 4,78% neyrocərrahiyyə, 3,84% travmatologiya, 5,83% urologiya, 1,92% otolarinqologiya, 10,56% oftalmologiya, 0,34% ginekologiya/doğuş, 0,60% ümumi cərrahiyyə və 0,37% digər sahələrdə olmaqla ümumi dəyəri 7578740,88 manat təşkil etmişdir. Qeyd edilməlidir ki, sözügedən xidmətlər Agentliklə müqavilə əsasında bir sıra özəl və təsərrüfat hesablı dövlət tibb müəssisələri tərəfindən göstərilmişdir. Göstərilmiş xidmətlərin aid olduğu xəstəlik sinifləri üzrə bölgüsü aşağıdakı diaqramda əks olunmuşdur:




## 4. Maliyyə ayırmaları

Ümumilikdə, 2020-ci ildə icbari tibbi sığortanın tətbiqi ilə bağlı xərclərin maliyyələşdirilməsinə 171 031,91 min manat məbləğində vəsait sərf edilmişdir ki, bu vəsaitin 163 643,37 min manatı icbari tibbi sığortanın tətbiq edildiyi ərazilərdə tibb müəssisələri üzrə xərclərin, 7 388,54 min manatı TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrində göstərilməsi mümkün olmayan ixtisaslaşdırılmış tibbi xidmətlərin özəl və təsərrüfat hesablı dövlət tibb müəssisələrində göstərilməsi üzrə sığorta ödənişlərinin payına düşür.

**2020-ci ildə səhiyyə xərclərinin maliyyələşdirilməsinə sərf olunan vəsait**

**min manat**

| **Xərc istiqamətləri** | 2020-ci il |
|---|---|
| İcbari tibbi sığortanın tətbiq edildiyi ərazilərdə tibb müəssisələri üzrə xərclər | **163,643.37** |
| TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrində göstərilməsi mümkün olmayan ixtisaslaşdırılmış tibbi xidmətlərin özəl və təsərrüfat hesablı dövlət tibb müəssisələrində göstərilməsi üzrə sığorta ödənişləri | **7,388.54** |
| Cəmi | **171,031.91** |

## 5. İctimaiyyətlə əlaqələr

İTS-nin əhəmiyyəti, üstünlükləri, habelə ölkə üzrə mərhələli tətbiqi barədə əhalini maarifləndirmək məqsədilə 2020-ci ildə Agentlik tərəfindən 26 şəhər və rayonda (Gəncə şəhəri, Abşeron, Göygöl, Samux, Goranboy, Naftalan, Tərtər, Ağdam rayonu Quzanlı qəsəbəsi, Bərdə, Ağcəbədi, Füzuli rayonu Horadiz şəhəri, Beyləqan, Astara, Lerik, Lənkəran, Yardımlı, Masallı, Cəlilabad, Biləsuvar, Salyan, Neftçala, Saatlı, Sabirabad, İmişli, Şirvan,

Hacıqabul rayonları) yerli əhali və orada məskunlaşmış məcburi köçkünlər üçün 29, habelə Bakı şəhərinin 7 rayonunda (Xətai, Pirallahı, Nizami, Qaradağ, Nəsimi, Suraxanı, Yasamal rayonları) və 13 ali təhsil müəssisəsində yerli əhali, o cümlədən pedaqoji heyət və tələbələr üçün 23 tədbir keçirilmişdir. Tədbirlərdə ümumilikdə 14027 nəfər iştirak etmişdir.

Həmçinin kütləvi informasiya vasitələri (bundan sonra – KİV) nümayəndələri üçün “KİV nümayəndələrinin icbari tibbi sığorta sahəsində məlumatlılığının artırılması” mövzusunda təlim keçirilmişdir.

2020-ci ildə İTS mövzusunda KİV-də yayımlanmış xəbərlərin sayında 2019-cu il ilə müqayisədə 51.8% artım qeydə alınmışdır. Belə ki, 2019-cu ildə sözügedən göstərici 7702 təşkil etdiyi halda, 2020-ci ildə 11691 təşkil etmişdir. Göstəricilər aşağıdakı diaqramda təqdim olunur:

İTS sahəsi üzrə KİV-də yayımlanan xəbərlər




KİV-də İTS mövzusunda yayımlanmış xəbərlərin xarakteristikasında da müsbət dinamika müşahidə olunmuşdur. Belə ki, 2019-cu il ilə müqayisədə 2020-ci ildə pozitiv xarakterli xəbərlərin sayı üstünlük təşkil etmişdir, qərəzli xəbərlərin sayında isə kəskin azalma qeydə alınmışdır. Göstəricilər aşağıdakı diaqramda təqdim olunur:

**KİV-də işıqlandırılan xəbərlərin xarakteristikası**



İTS mövzusunu mediada işıqlandırmaq məqsədilə hazırlanmış və KİV-də yayımlanmış məlumatların (press-reliz, xəbər, açıqlama, elan) sayında 2019-cu il ilə müqayisdə 15.5% artım qeydə alınmışdır. Göstəricilər aşağıdakı diaqramda təqdim olunur:

**İctimaiyyətə açıqlanan məlumatlar**




Agentliyə KİV-dən daxil olmuş 262 sayda informasiya sorğusu, habelə qurumun sosial şəbəkələrdəki səhifələrinə daxil olmuş 132888 sayda vətəndaş sorğusu müvafiq qaydada cavablandırılmışdır. Göstəricilər aşağıdakı diaqramda təqdim olunur:

**KİV-dən daxil olan sorğular**




**Sosial şəbəkələrə daxil olan vətəndaş müraciətlərinin sayı**




Agentliyin rəsmi internet səhifəsinin (www.its.gov.az) məzmun, struktur və dizaynında dəyişikliklər edilmiş, saytın oxunaqlığı və vizuallağı təkmilləşdirilmişdir. Belə ki, saytın ana səhifəsi 6 bölmədən ibarət tərtib edilmişdir. Saytın "Agentlik" bölməsinə "Tibbi Ərazi Bölmələri"

altbölməsi əlavə edilmişdir. Bu altbölmədə Agentlik tərəfindən təsdiq edilmiş 13 Tibbi Ərazi Bölməsi (bundan sonra – TƏB) üzrə interaktiv xəritə yerləşdirilmişdir. Xəritədə istənilən bölgənin üzərinə tıkladıqda yeni səhifədə müvafiq TƏB üzrə hər bir inzibati ərazi vahidinin səhiyyə imkanlarına dair statistik məlumatlar göstərilir.

Saytın "Filiallar" altbölməsində Agentliyin strukturuna daxil olan 11 filialın interaktiv xəritəsi yerləşdirilmişdir. Xəritədə fəaliyyətdə olan istənilən filialın üzərinə tıkladıqda yeni səhifədə həmin filial haqqında məlumat göstərilir.

Saytın əsas fəaliyyət göstəriciləri aşağıdakı diaqramda təqdim olunur:




Agentlik sosial şəbəkələrdə də aktiv fəaliyyət göstərmişdir. Belə ki, qurumun sosial şəbəkələrdəki səhifələrində ümumilikdə 3128 post paylaşılmışdır. Həmçinin Agentliyin "YouTube" kanalında 503 video yerləşdirilmişdir ki, bunlara Agentlik tərəfindən hazırlanmış 65 videoçarx və 3 həyat hekayəsi də daxildir. Agentliyin "Telegram" kanalı isə 2020-ci ilin sentyabr ayında istifadəyə verilmişdir. Sosial şəbəkələr üzrə əsas fəaliyyət göstəriciləri aşağıdakı diaqramda təqdim olunur:



## Sosial şəbəkələr üzrə istifadəçi sayı




“SIĞORTALI OL, SAĞLAM YAŞA!” sloqanı altında 25 regionda və paytaxtda, o cümlədən Bakı metropolitenində (stansiyalarda, vaqon pəncərələrində, pilləkənlərdə və eskalatorlarda) və avtobus dayanacaqlarında 2019-cu ildə quraşdırılmış reklam lövhə və posterlərin 2020-ci ildə də həmin yerlərdə qalması təmin edilmişdir.

Agentliyin təşəbbüsü və Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə 2019-cu ilin sonu elan olunmuş “Regionlarda əhalinin icbari tibbi sığorta haqqında maarifləndirilməsi” mövzusunda qrant müsabiqəsində 8 qeyri-hökumət təşkilatı qalib gəlmişdir. Ölkədəki mövcud koronavirus pandemiyası səbəbindən 2020-ci ildə yalnız 3 qeyri-hökumət təşkilatı müvafiq maarifləndirmə tədbirləri (2 vebinar, 5 ictimai müzakirə, internet televiziya kanalında 6 məlumatlandırıcı xarakterli proqram) həyata keçirmişdir.

## 6. Vətəndaş müraciətlərinə baxılması

2020-ci ildə Agentlik tərəfindən vətəndaşların müraciətlərinə qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə baxılması təmin edilmişdir.

İl ərzində Agentliyə 11683-ü ərizə, 2893-ü şikayət və 169-u təklif xarakterli (ümumilikdə 14745) yazılı müraciət daxil olmuşdur. Müraciətlərə dair ətraflı məlumat aşağıdakı cədvəllərdə göstərilmişdir:

| Daxil olan müraciətlərin mövzuları | Say | Faizlə |
|---|---|---|
| Ümumi: | 14745 | |
| o cümlədən, | | |
| Müayinə və müalicə, cərrahiyyə əməliyyatı, dərman təminatı haqqında | 8511 | 57,6% |
| Xəstəxanaların vəzifəli şəxslərindən, həkimlərdən, tibb personalından, göstərilmiş tibbi xidmətlərdən, pul, ödəniş tələb olunmasından şikayət haqqında | 914 | 6,2% |
| İş və əmək münasibətləri haqqında | 1378 | 9,4% |

| | | |
|---|---|---|
| Əlillik məsələləri haqqında | 3552 | 24,2% |
| İTS-nin tətbiqi, sığorta haqları, sığortalı olmadığına dair arayışın verilməsi haqqında | 179 | 1,2% |
| Digər | 211 | 1,4% |

| Müraciətlərə baxılmanın vəziyyəti | Say | Faizlə |
|---|---|---|
| Həll olunmuşdur | 2085 | 14,1% |
| Rədd edilmişdir (əsassız sayılmışdır) | 169 | 1,2% |
| Müvafiq izahat verilmişdir | 7012 | 47,5% |
| İcradadır | 5018 | 34,1% |
| Baxılmaq üçün aidiyyəti təşkilatlara göndərilmişdir | 177 | 1,2% |
| Baxılmamış saxlanılmışdır | 284 | 1,9% |

Agentliyin rəhbərliyi və vəzifəli şəxsləri tərəfindən qəbul edilən vətəndaşların sayı 2811 nəfər təşkil etmişdir. Qəbullarda vətəndaşlar tərəfindən qaldırılmış məsələlər əsasən tibbi sərfin qarşılanması, əlillik dərəcəsinin təyin edilməsi, işlə təmin olunma, müayinə, müalicə, cərrahiyyə əməliyyatı və dərman təminatı ilə əlaqədar olmuşdur.

Müraciət etmək imkanlarının artırılması məqsədilə Agentliyin rəsmi internet səhifəsində vətəndaşlar üçün xüsusi bölmə fəaliyyət göstərməkdədir. Bölmədə vətəndaşların qəbulu cədvəli, vətəndaşların müraciətlərinə dair qanunvericilik aktları yerləşdirilmiş, habelə onların elektron qaydada müraciət göndərmələri və aidiyyəti vəzifəli şəxsin qəbuluna yazılmaları təmin edilmişdir.

İl ərzində Agentliyin "1542" Çağrı mərkəzinə ümumilikdə 133574 olmaqla, koronavirus pandemiyası ilə bağlı xəttinə 73828, İTS və digər məsələlərlə bağlı xəttinə 11488, psixoloji dəstəklə bağlı xəttinə 3837, poliklinik xidmətlərlə bağlı dəstək xəttinə 13039, COVID-19 testinin nəticəsi və seroloji testlərlə bağlı xəttinə isə 31382 vətəndaş müraciəti daxil olmuşdur.

## 7. Beynəlxalq əməkdaşlıq

### 7.1. Layihələr

2020-ci ildə Agentlik beynəlxalq əməkdaşlıq çərçivəsində aşağıdakı layihələri icra etmişdir:

- İyun ayında Danimarka Krallığının "NovoNordisk" əczaçılıq şirkəti ilə "Virtual Diabet Məktəbi" layihəsinin həyata keçirilməsi üzrə danışıqlara başlanılmışdır. Layihənin məqsədi Azərbaycan Respublikasında ictimaiyyətin şəkərli diabetlə mübarizəyə olan diqqətini artırmaq və əhalini bu istiqamətdə maarifləndirərək sağlam həyat tərzinə keçməyə sövq etməkdir.
- İyul ayında Ümumdünya Səhiyyə Təşkilatı (bundan sonra – ÜST), UNICEF, Heydər Əliyev Fondu, USAID, UK Aid, RoAID təşkilatlarının dəstəyi ilə "PROACT-Qayğı" layihəsinin icrasına başlanılmışdır. Layihənin məqsədi koronavirus pandemiyası ilə əlaqədar Azərbaycan Respublikasında görülmüş tədbirləri genişləndirmək və digər əsas səhiyyə xidmətlərinin göstərilməsini təmin etmək üçün ilkin səhiyyə xidmətini gücləndirməkdir. 3 il davam edəcək layihə 2 mərhələdən ibarət olacaqdır: 1) Şamaxı rayonunda pilot layihə şəklində ilkin səhiyyə xidməti modelinin qurulması; 2) Şamaxı,

Ağdam və digər rayonlarda ilkin səhiyyə xidmətinə dair pilot layihənin həyata keçirilməsi üçün uzunmüddətli perspektivlər və planların hazırlanması.

- Dekabr ayında Agentlik və Dünya Bankı arasında Azərbaycan Respublikasında piylənmə və siqaret çəkmə mövzusunda 2021-ci ildə randomizə edilmiş tədqiqatın keçirilməsi ilə bağlı müzakirələrə başlanılmışdır. Tədqiqatın məqsədi sözügedən sağlamlıq problemlərinin həllində maddi həvəsləndirici vasitələrin rolunun qiymətləndirilməsidir.
- Dekabr ayında Qlobal Fondun maliyyə dəstəyi ilə ÜST-ün eksperti tərəfindən Agentliyin tibbi iddiaların idarəedilməsi sisteminin qiymətləndirilməsi üzrə texniki yardım layihəsinə başlanılmışdır. Layihənin 2021-ci ildə tamamlanması nəzərdə tutulur.

### 7.2. Beynəlxalq təcrübənin öyrənilməsi

İTS və səhiyyənin təşkili sahəsində beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə 2020-ci ildə Agentliyin əməkdaşları Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına və Türkiyə Respublikasına səfər etmişlər. Səfərlər zamanı ilkin səhiyyə xidmətinin təşkili, e-səhiyyə, səhiyyənin maliyyələşdirilməsi, tibbi təhsil və təlimlər, habelə səhiyyə xidmətlərinin pandemiya şəraitində təşkili sahələrində həmin ölkələrin təcrübələri öyrənilmişdir.

Səfərlərlə yanaşı Agentliyin nümayəndələri əməkdaşlıq imkanlarının müzakirəsi məqsədilə görüşlər keçirmişlər:

- 17 sentyabr tarixində Koreya Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi tərəfindən “2020 Koreya Tibbi” layihəsi çərçivəsində onlayn seminar təşkil edilmişdir. Seminarda səfirliyin, Agentliyin, TƏBİB-in və Koreya Səhiyyə Sənayesinin İnkişafı İnstitutunun nümayəndələri iştirak etmişlər.
- 4 dekabr tarixində Yaponiyanın Azərbaycan Respublikasındakı səfirliyində görüş keçirilmişdir. Görüşdə səhiyyə sahəsində yapon sərmayə imkanları müzakirə olunmuşdur.

## 8. Koronavirus pandemiyası ilə mübarizə

### 8.1. Tibbi statistik göstəricilər

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın 2020-ci il 31 dekabr tarixində açıqladığı məlumata əsasən ölkə üzrə koronavirusa yoluxanların ümumi sayı 218700, sağalanların ümumi sayı 184422, ümumi test sayı isə 2195466 təşkil etmişdir.

### 8.2. Texniki dəstək

Koronavirus pandemiyası ilə mübarizə məqsədilə stasionar müalicə tədbirlərinə cəlb edilmiş tibb müəssisələrində zəruri təşkilati işləri həyata keçirmək və vəziyyəti nəzarətdə saxlamaq üçün Agentliyin əməkdaşları həmin müəssisələrə ezam olunmuşlar.

Müvafiq profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsinə dəstək məqsədilə 27 fevral tarixində Agentliyin “1542” Çağrı mərkəzinin ayrıca xətti (1542-0) 7 gün 24 saat rejimində istifadəyə verilmişdir. Həmçinin Heydər Əliyev Fondunun və Heydər Əliyev Mərkəzinin dəstəyi ilə Çağrı mərkəzi tərəfindən müxtəlif xidmətlər – psixoloji yardım (1542-2), poliklinik xidmətlər (1542-3), COVID-19 testinin nəticəsi və seroloji testlər (1542-4) ilə bağlı

dəstək xətləri istifadəyə verilmişdir, vaksinasiya xəttinin (1542-5) 2021-ci ilin əvvəlindən istifadəyə verlməsi ilə bağlı hazırlıq işləri tamamlanmışdır.

### 8.3. İnformasiya texnologiyaları üzrə tədbirlər

Koronavirus pandemiyasının ölkə ərazisində yayılmasının qarşısını almaq məqsədilə qısa müddət ərzində qeydiyyat proqramı yaradılmışdır. Proqram vasitəsilə pozitiv xəstə sayı, karantində yerləşən, ambulator və stasionar istiqamətlər üzrə yuxarı tənəffüs yolu xəstəlikləri şikayəti ilə tibb müəssisələrinə müraciət etmiş vətəndaşlar adlı siyahı hazırlanmışdır və nəzarət mexanizmi həyata keçirilmişdir.

Pandemiya ilə mübarizə çərçivəsində ölkədə qurulmuş koronavirus testlərinin qəbul məntəqələri və modul tipli xəstəxanalar, habelə xüsusi olaraq ayrılmış tibb müəssisələri kompüterlər, printerlər, bar kod aparatlar və digər texniki avadanlıqlar, habelə proqram təminatı ilə təmin edilmişlər.

61 tibb müəssisəsində elektron qeydiyyat postları qurulmuşdur. Koronavirus testlərinin yoxlanılması üçün 42 laboratoriya tam avtomatlaşdırılmış və nəticələrin elektron qaydada işlənməsi təmin edilmişdir.

Vətəndaşların koronavirus testlərinin nəticələri ilə tanış olmaları üçün sms məlumatlandırma sistemi qurulmuşdur. Bununla yanaşı, sahə həkimlərinin yüngül və ya asimptomatik xəstələrin evdə müşahidə və müalicə proseslərini izləmələri üçün bütün dövlət tibb müəssisələri üçün proqram təminatı istifadəyə verilmişdir.

Ölkə ərazisində daxili reyslərdən istifadə edən sərnişinlərin koronavirus testini vermələri üçün Agentliyin rəsmi internet səhifəsində "Sərnişinlər üçün onlayn növbə (COVID-19)" yeni elektron xidmət istifadəyə vermişdir.

### 8.4. Maarifləndirmə üzrə tədbirlər

Əhalinin koronavirusla bağlı maarifləndirilməsi məqsədilə Agentlik Bakı şəhərinin 7 rayonunda (Xətai, Pirallahı, Nizami, Qaradağ, Nəsimi, Suraxanı, Yasamal rayonları) və 13 ali təhsil müəssisəsində yerli əhali, o cümlədən pedaqoji heyət və tələbələr üçün 23 tədbir keçirmişdir.

Agentliyin rəsmi internet səhifəsində "Koronavirus" bölməsi yaradılmışdır. Bölmə 5 altbölmədən ("Ölkədə ümumi vəziyyət", "Ən çox verilən suallar", "Sənədlər", "Könüllü tibb işçilərinin qeydiyyatı", "Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatı") ibarətdir.

Koronavirusla mübarizə ilə bağlı 54 məlumat (xəbər, press-reliz, açıqlama), 74 məlumatlandırıcı post və 9 videoçarx, habelə tibb işçilərinə müddətli əlavələrin verilməsi ilə bağlı 22 post, "Koronavirusla mübarizə aparan tibb işçilərimiz" rubrikası çərçivəsində 6 post hazırlanıb paylaşılmışdır. Agentliyin sosial şəbəkələrdəki səhifələrində digər dövlət qurumlara istinad edilərək 473 məlumatlandırıcı post, "YouTube" kanalında isə 299 televiziya xəbəri və videoçarx yerləşdirilmişdir.

Agentlik Birləşmiş Millətlər Təşkilatının və Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan nümayəndəlikləri ilə birlikdə "Təmiz əllər" və "Evdə həyat var" kampaniyaları təşkil etmişdir. Kampaniyalar çərçivəsində hazırlanmış 25 videoçarx Agentliyin sosial şəbəkələrindəki səhifələrində və "YouTube" kanalında yerləşdirilmişdir.

### 8.5. Beynəlxalq əməkdaşlıq

Koronavirus pandemiyası ilə mübarizə məqsədilə Agentlik beynəlxalq əməkdaşlıq çərçivəsində aşağıdakı layihələri icra etmişdir:

- Sentyabr ayında Asiya İnkişaf Bankı tərəfindən “COVID-19 yeni növ koronavirus pandemiyasının, habelə digər yoluxucu xəstəliklərin mənfi təsirinin azaldılması məqsədilə regional dəstək tədbirləri” çərçivəsində Agentliyə 455000 ABŞ dolları həcmində texniki yardım (maska, qoruyucu geyim və sair ləvazimatlar) və ekspert dəstəyi göstərilmişdir. Texniki yardımın məqsədi bankın inkişaf etməkdə olan üzv dövlətlərinin səhiyyə sisteminin gücləndirilməsi, habelə koronavirus pandemiyasının qarşısının alınması və onunla mübarizə prosesini dəstəkləmək olmuşdur.
- Sentyabr ayında “Cənubi Qafqazda aztəminatlı məcburi köçkünlərin və yerli əhalinin iqtisadi və sosial inkişafı” (EPIC) proqramının icrası məqsədilə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) və Agentlik arasında Anlaşma Memorandumu imzalanmışdır. Anlaşma Memorandumu çərçivəsində koronavirus pandemiyasına qarşı mübarizəyə dəstək məqsədilə Bərdə və Ağdam rayonlarında ümumilikdə 28 kənd tibb müəssisəsinə 26 adda tibbi avadanlıq, ləvazimat və mebel dəstləri ianə edilmişdir.
- Sentyabr ayında Yaponiyanın Siyasət və İnsan Resurslarının İnkişafı Fondu tərəfindən ayrılmış qrant çərçivəsində Dünya Bankı tərəfindən Azərbaycan Respublikasında “Səhiyyə Sisteminin gücləndirilməsi və COVID-19 pandemiyasının təsirinin yumşaldılması üçün elektron səhiyyə strategiyasının həyata keçirilməsi” texniki yardım layihəsinin icrasına başlanılmışdır. Layihənin məqsədi səhiyyə məlumatlarının idarəedilməsini gücləndirmək vasitəsilə səhiyyə sisteminin səmərəliliyini yaxşılaşdırmaqdır. 23 ay davam edəcək layihədə 2 istiqamət üzrə fəaliyyətin həyata keçirilməsi nəzərdə tutulur: 1) e-səhiyyə sisteminin yaradılması və istifadəsi üçün potensialın qiymətləndirilməsi; 2) tibbi xidmət təchizatçılarına ödənişlər və tibbi iddiaların idarəedilməsi sisteminin təkmilləşdirilməsi.
- Noyabr ayında Yaponiyanın “İqtisadi və Sosial İnkişaf Proqramı” qrant layihəsinin icrasına başlanılmışdır. 12 ay davam edəcək layihənin məqsədi tibb müəssisələrini tibbi avadanlıqlarla təmin etməklə koronavirus pandemiyasının yayılmasının qarşısını almaq və səhiyyə sisteminə lazımi dəstək göstərməkdir.
- Dekabr ayında koronavirus pandemiyası ilə mübarizədə dəstək məqsədilə Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) tərəfindən Azərbaycan Respublikasına 3 ədəd səyyar koronavirus müayinə köşkü ianə edilmişdir.

## 9. İnkişaf perspektivləri

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 31 mart tarixli 979 nömrəli Fərmanına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 aprel tarixli 136 nömrəli Qərarına əsasən 2021-ci ildə İTS-nin ölkənin digər şəhər və rayonlarında mərhələli tətbiqi nəzərdə tutulmuşdur. Bununla bağlı 2020-ci ildə Agentlik tərəfindən müxtəlif sahələri (informasiya texnologiyaları, qeydiyyat sistemi, isnsan resursları və sair) əhatə edən bir sıra hazırlıq işləri həyata keçirilmişdir.

### 9.1. İnformasiya texnologiyaları və qeydiyyat sistemi üzrə hazırlıq işləri

TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrinin zəruri şərait və avadanlıqlar ilə təminatı 2020-ci ildə davam etdirilmişdir. Belə ki, tibb müəssisələri 5300 kompüter, 2260 printer və 6100 barkod aparatlar və digər texniki avadanlıqlar ilə təmin olunmuşlar. Bununla yanaşı, 14 tibb müəssisəsi optik internetlə təmin edilmişdir.

Tibb müəssisələrinin idarəolunması, habelə bura müraciət edənlərin İTS və tibbi məlumatlarının proqram təminatına daxil edilməsi üçün Xəstəxanaların İdarəolunması Sisteminin qurulması da davam etdirilmişdir. Sistemin istifadəsini təmin etmək məqsədilə tibb müəssisələrinin əməkdaşlarına təlimlər keçirilmişdir. Belə ki, qeydiyyatı aparacaq əməkdaşlar

(qeydiyyatçılar) seçilmiş, onlara vətəndaşların ilkin qeydiyyatı, tibbi məlumatların əlavə olunması, stasionar xidmət üzrə qeydiyyat, təcili və təxirəsalınmaz tibbi yardım xidməti üzrə qeydiyyat, laborator və instrumental diaqnostika, anbar modulu və maliyyə ödənişləri üzrə ayrı-ayrılıqda təlimlər keçirilmişdir. Təlimlərdən sonra əməkdaşların və tibb müəssisələrinin fəaliyyəti üzrə dəyərləndirmə aparılmışdır.

“Şəxsi kabinetə giriş” və “Tibbi xidmətlərin onlayn ödənişi” adlı yeni elektron xidmətlər istifadəyə verilmişdir.

### 9.2. İnsan resursları üzrə hazırlıq işləri

TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrinin əməkdaşlarına zəruri təlimlərin keçirilməsi 2020-ci ildə davam etdirilmişdir:

- 27 fevral tarixində keçirilmiş təlimdə ölkənin 19 şəhər və rayonu üzrə Mərkəzi Xəstəxanaların və Müalicə Diaqnostika Mərkəzlərinin kadrlar şöbələrinin ümumilikdə 26 əməkdaşı iştirak etmişdir. İştirakçılara Agentlik və İTS haqqında, habelə onların tibb müəssisələrinin İTS-yə keçid prosesində görməli olduqları işlər və göstərməli olduqları davranış və münasibətlər barədə məlumatlar verilmişdir.
- 28 fevral tarixində “Baş tibb bacısının/qardaşının işinin təşkili” mövzusunda keçirilmiş təlimə ölkənin 19 şəhər və rayonu üzrə Mərkəzi Xəstəxanaların və Müalicə Diaqnostika Mərkəzlərinin ümumilikdə 26 baş tibb bacısı qatılmışdır. İştirakçılara onların vəzifə öhdəlikləri, işlərinin düzgün təşkili və göstərməli olduqları davranış və münasibətlər ilə bağlı həm nəzəri məlumatlar verilmiş, həm də praktiki məşğələlər keçirilmişdir.
- Sentyabr-dekabr aylarında keçirilmiş onlayn təlimlərdə ölkənin 20 şəhər və rayonu üzrə Mərkəzi Xəstəxanaların və Müalicə Diaqnostika Mərkəzlərinin kadrlar şöbələrinin ümumilikdə 45 əməkdaşı iştirak etmişdir. İştirakçılara Agentlik tərəfindən yaradılmış Elektron İnsan Resursları proqram təminatı ilə bağlı həm nəzəri məlumatlar verilmiş, həm də praktiki məşğələlər keçirilmişdir.
- 29 dekabr tarixində keçirilmiş onlayn təlimə ölkənin 15 şəhər və rayonu üzrə Mərkəzi Xəstəxanaların və Müalicə Diaqnostika Mərkəzlərinin kadrlar şöbələrinin ümumilikdə 31 əməkdaşı qatılmışdır. İştirakçılara Agentlik və İTS haqqında, habelə onların tibb müəssisələrinin İTS-yə keçid prosesində görməli olduqları işlər və göstərməli olduqları davranış və münasibətlər barədə məlumatlar verilmişdir.